# ALİMLƏR ÖLMÜR, ƏSƏRLƏRİNDƏ YAŞAYIR

"Kredo" qəzetinin 26 fevral 2025-ci il tarixli 7-ci sayında Azərbaycanın görkəmli alimi, professor, müəllimim Nizaməddin Şəmsizadənin şəklini, şəklin altındakı şeiri görüb sevindim. Müəllimimin yeni şeirini oxumaq üçün qəzetə taxıldım. Elə şeirin ilk sətrindən ... sarsıldım. İçimdən təəssüf dolu bir sızıltı keçdi. Müəllimim əbədiyyətə qovuşmuşdu. Bu, Əli Rza Xələflinin müəllimimə, öz dostuna həsr etdiyi elegiya idi.

Nizaməddin müəllimlə ara-sıra telefonla danışardım. Əhvalını soruşardım. Azərbaycan EA-da elmi işçi vəzifəsində çalışan, tələbəm olmuş qızı Fidan Şəmsizadə ilə yolum akademiyadan düşəndə rastlaşardım. İlk sualım "Nizaməddin müəllim necedir?" olardı. Ona salam göndərərdim.

Nizaməddin Şəmsizadəni demək olar ki, 1993-2007-ci illərdə "Azərbaycan müəllimi" qəzetində hər iş günü görərdim. Qəzetin saylarında onun çox maraqlı elmi düşüncələrini izləyər, bəzən də müəllimimlə tələbə-alim kimi fikir mübadiləsi edərdik. İllər ötdü. İş yerimi dəyişdim. ADPU-da çalışdım. Burada da hərdən onunla rastlaşar, bu görüşdən çox sevinərdim.

Nizaməddin müəllim "Azərbaycan müəllimi" qəzetinin uzun illər baş redaktoru olmuş, tanınmış jurnalist, yazıçı-şair, mərhum Məhəmməd Baharlının yaxın dostu, sirdaşı idi. Onlar bir-birilərinə həddən ziyadə bağlı və "ruh qardaşı" idilər. Əlimdə "Kredo" qəzeti bu ölümdən, sarsılmış düşüncəmdən bir sual keçdi - "Görəsən, Məhəmməd müəllim sağ olsaydı bu ölümü necə qarşılayardı". Sualın cavabını da verdim. "Məhəmməd Baharlının qəfil itkisi ruh qardaşını necə sarsıtmışdırsa..."

"Kredo"nun həmin sayında professor Asif Rüstəmlinin əməkdar elm xadimi, sözün əsil mənasında azərbaycanşünas alim olan Nizaməddin Şəmsizadə haqqında bu itkidən kədərli notlara söykənən emiavtobioqrafik məqaləsini oxudum. Mən də qəmli notlar üzərində vaxtilə müəllimimin, 23 il bundan öncə 50 illiyi münasibətilə lakin çox böyük qürur, fəxr hissiylə qələmə aldığım, "Azərbaycan müəllimi" qəzetində dərc olunan "Müəllimimizin yubileyi" adlı yazımı "Kredo"nun baş redaktoru, müəllimimin əziz dostu, şair Əli Rza Xələflidən qəzetin növbəti sayında dərc olunması üçün xahiş edərək ona təqdim etdim.

Əziz müəllimim, qəbrin nurla dolsun. Əziz xatirən, mənim kimi yüzlərlə tələbələrinin qəlbində əbədi yaşayacaq!

Alim ölmür. Yaratdığı əsərlərdə yaşayır. Nizaməddin Şəmsizadənin yaratdığı əsərlər Azərbaycan elminin, ədəbiyyatşünaslığın salnaməsidir...

### Müəllimimizin yubileyi

2002-ci ilin əlamətdar hadisələrindən biri də tənqidçi və ədəbiyyatşünas, azərbaycanşünas alim, Qafqaz Xalqları Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Y.Məmmədəliyev mükafatı laureatı, "Mədəniyyət və sənət" jurnalının baş redaktoru, ADMİU-nun ədəbiyyat və Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadənin anadan olmasının 50-ci ildönümünün qeyd edilməsidir.

Dekabrın 29-da Akademik Milli Dram Teatrında Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti yubiley tədbiri keçirdi. Yubiley mərasiminin giriş sözü ilə ADMİU-nun rektoru, əməkdar incəsənət xadimi, professor Timuçin Əfəndiyev açdı. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik Bəkir Nəbiyev "Filosof tənqidçi", filologiya elmləri doktoru Şamil Vəliyev "Azərbaycanşünas alim" mövzularında məruzə etdilər. Yazıçı Gülhüseyn Hüseynoğlu, şair Zəlimxan Yaqub, şair, həkim Paşa Qəlbinur və digərləri çıxış edərək təbrik sözü söylədilər. Onlar Nizaməddin Şəmsizadənin həyat və elmi fəaliyyətindən, Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərindən, Azərbaycan elminə gətirdiyi töhfələrdən, gənc milli ədəbiyyatşünas alimlərin yetişməsində rolundan, insanpərvərliyindən, gözəl ailə başçısı olmasından və s. xüsusiyyətlərindən geniş söz açdılar. Qüdrətli qələm sahibləri də mətbuatda onun həyat və elmi yaradıcılığı, Azərbaycan ədəbiyyatına verdiyi elmi töhfələr və s. haqqında söz



demişlər.

Mətbuatda dərc olunmuş bir yazıda ("Hər zaman görmək istədiyim insan", müəllifi alimin yaxın dostu, yazıçı-jurnalist Məhəmməd Baharlı) oxudum: "Tələbə vaxtlarında mənə dərs demiş olsaydı, çox irəli gedərdim bilikdə, gözüaçıqlıqda, həssaslıqda, nikbinlikdə, həyat eşqində və s. Çünki o, əsl pedaqoqdur və öyrətməndir". Necə də yerində, gözəl deyilib! Fəxr etdim. Çünki Nizaməddin Şəmsizadə mənim müəllimim olub.

Bakı Dövlət Universitetinin filologiya fakültəsinin II kursunda (axşam şöbəsində) oxuyurdum. Yay semestrinin əvvəli idi. Yadımdadır, tədris binasının II mərtəbəsində 209 saylı auditoriya vardı (indi həmin auditoriyada Mir Cəlal Paşayev adına Azərbaycan ədəbiyyatı tarixi kafedrası yerləşir). Zəng içəri vuruldu. Auditoriyanın qapısı açıldı. İçəriyə şux qamətli, nisbətən dolu bədənli, nurlu simalı, sarışın gənc bir oğlan daxil oldu. Elə bildik ki, o, ya hüquq, ya da tarix fakültəsinin tələbəsidir, auditoriyanı səhv salıb (o fakültələrlə bizim fakültəmiz bir tədris binasında yerləşirdi. İndi də belədir). Onun əlində jurnalı görüb yanıldığımızı, onun aspirant olduğunu, rus ədəbiyyatından bizə dərs deyəcək müəllimimizi əvəz edəcəyini zənn etdik. Yenə yanıldıq. Heç demə, bu gənc oğlan filologiya elmləri namizədiymiş. Bizə rus ədəbiyyatından mühazirə oxuyacaqdı. Auditoriyada canlanma yarandı. 50 nəfər tələbənin 43-ü qız, 7-si oğlan idi. Nizaməddin müəllim gənclərin, xüsusən də qızların "hay-küyünü" tez anladı. Üzünü xoş bir təbəssüm bürüdü. Mehribanlıqla "siz mənim ilk tələbələrimsiz. İlk dəfədir ki, əlimə jurnal alıb bir müəllim kimi auditoriyaya daxil oluram. Sizin hər biriniz bu gündən mənim sevimli tələbələrimsiniz" dedi. Auditoriya sükuta qərq oldu. Nizaməddin müəllim jurnalda ad və soyadlarımızı oxuyaraq birbir bizimlə tanış oldu. Və bizi də özü haqqında məlumatlandırdı.

Nizaməddin müəllimin mühazirələrini acgözlüklə, dərin maaraqla dinləyirdik. Onun mühazirələri elmi və məntiqli idi. Bəzi müəllimlər kimi vaxtı öldürmürdü. Hər dəqiqəsinin qədrini bilirdi. Seminar məşğələlərini də özü aparırdı. Çox vaxt məşğələmiz diskussiya şəklində keçirdi. Hər birimiz onun dərsi olacağı günü səbirsizliklə gözləyirdik. Auditoriyaya tam bir sükut çökürdü. Müəllimimiz danışar, biz də qeydlərimizi edərdik.

Axşam şöbəsində oxuduğumuzdan hər birimiz istehsalatda calişirdiq. O, bizə son dərəcə qayğı ilə yanaşardı. Yorğunluğumuzu aradan götürmək üçün tez-tez yumora da keçərdi. Bizə hərdən "yəqin acsınız, icazə verirəm. Bufetə gedib bir stakan çay için" deyərdi. Heç birimiz getməzdik. Çünki vaxt itirmək istəmirdik (Digər müəllimlərimizdən də biz belə qayğı görərdik. Bəzilərinin mənasız mühazirələrinə qulaq asmaqdansa bufetdə oturub dincəlməyə üstünlük verərdik).

Nizaməddin müəllim aydın simalı adam idi. İmtahanda heç kəs ona tapşırılmazdı. Hamı arxayın idi. Çünki bilirdik ki, sevimli müəllimimiz hər kəsin biliyinə bələddir. Hər kəs də öz obyektiv qiymətini alacaq. Və belə də oldu.

Quş qanadlı illər ötdü. Kənd Tikinti Nazirliyində arxiv, layihə şöbəsinin müdiri, "Azərbaycan məktəbi" jurnalında şöbə redaktoru, "Təhsil", "Mozalan" qəzetlərində müxbir işlədim. 1993-cü il mart ayının 13-də "Azərbaycan müəllimi" qəzetinə işə dəvət olundum. Tutduğum vəzifəmlə bağlı təhsil ocaqlarına gedirdim. Müəllimlərin "açıq dərs"lərini dinləyirdim. Bununla yanaşı özüm də müəllim işlədim. Müəllim necə olmalıdır? Bu sualın mahiyyətini dərk etdim.

Nizaməddin müəllim əsl müəllimdir. Əsl pedaqoqdur. Müəllimlər müəllimidir. Onun güclü metodikası var. O vaxtlar bunları dərk etməyə yaşım və təcrübəm imkan vermirdi.

"Azərbaycan müəllimi" qəzetində işə başladığım ilk günlər idi. Bir dəfə baş redaktorun otağından tanış, isti bir səs eşitdim. Maraq məni bürüdü. Baş redaktorun (o vaxt Məhəmməd Baharlı idi. İndi baş redaktor müavinidir) tapşırığı ilə qəzetin növbəti sayına hazırladığım yazını bəhanə edib, qapını döydüm. "Gəlin" sözündən sonra içəri daxil oldum. Eşitdiyim səsin sahibini - sevimli müəllimim Nizaməddin Şəmsizadəni gördüm. Söhbət etdik, mən elmi yaradıcılıqla məşğul olduğumu bildirdim. Mövzumla maraqlandı. Bir müəllim kimi mənə öz tövsiyələrini verdi.

Tale elə gətirdi ki, bir müddət BDU-da pedaqoji fəaliyyətlə məşğul oldum. Filologiya fakültəsinin II kursunda dərs aparırdım. Tələbələrimdən birinin adı Fidan Nizaməddin qızı Şəmsizadə diqqətimi cəlb etdi. Maraqlandım, məlum oldu ki, mənim müəllimimin qızıdır. Sevindim. İçimi qəribə bir hiss bürüdü. Müəllimimin qızının müəllimi idim. Düzü, bu qız mənim diqqətimi öz biliyi, nizam-intizamlı olması, əxlaqi keyfiyyətləri ilə ilk gündən cəlb etmişdi. İndi Fidan Azərbaycan Elmlər Akademiyasında elmi işçi vəzifəsində çalışır. Namizədlik dissertasiyası üzərində işləyir. Gözəl hekayələr müəllifidir.

Nizaməddin müəllimin elmi təfəkkürü nəinki tələbələrinə, onun ailesinə də sirayət edib. Xanımı Qızqayıt müəllim Bakının Yasamal rayonundakı 286 saylı məktəbdə Azərbaycan və ədəbiyyat fənnini tədris edir. Bu günlərdə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda namizədlik dissertasiyasını uğurla müdafiə edib.

Nizaməddin Şəmsizadənin müəllimliyi haqqında yuxarıda qeyd etdiyimiz bir fikri yenə xatırlatmaq istəyirəm. "Mənə dərs demiş olsaydı, çox irəli gedərdim bilikdə, gözüaçıqlıqda, insanlıqda, nikbinlikdə, həyat eşqində". Sevinirəm ki, Nizaməddin müəllim mənə dərs demiş, nə isə ondan götürə bilmişəm. Müəllim elə olmalıdır ki, yetirmələri həmişə onun haqqında belə xoş sözlər deyə bilsin.

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Nizaməddin müəllimin üzvü olduğu və onun iştirakı ilə ixtisaslaşdırılmış müdafiə şurasında mən də namizədlik dissertasiyası müdafiə etdim. Elmi dərəcə aldım. Bundan qürur duyuram. İnanıram ki, mən tək deyiləm. Nizaməddin müəllimdən öyrənənlər çoxdur.

Müəllimimin çoxlu sayda kitabları məndə də var: Onun avtoqrafı ilə. Hər gün onları səhifələyirəm. Nə isə öyrənməyə səy edirəm. Çox hörmətli alimimiz Bəkir Nəbiyev düzgün olaraq Nizaməddin Şəmsizadəni tənqidçi filosof adlandırır. Mən isə bu fikrə əlavə olaraq deyirəm: Nizaməddin Şəmsizadə həm də ədəbiyyatşünas filosofdur.

Əziz müəllimim, mən də sizi tələbələriniz adından təbrik edir, sizə yeni-yeni elmi nailiyyətlər arzulayıram! Həmişə səsiniz auditoriyalardan, elmi məclislərdən gəlsin!



***Pərixanım SOLTANQIZI***
***(Hüseynova)***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti***